# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Turizm Reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamının 3.2-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Turizm Reyestrinin aparılma Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

**Bakı şəhəri, 23 yanvar 2020-ci il**

**№ 16**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 23 yanvar
tarixli 16 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Turizm Reyestrinin aparılma

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamının 3.2-1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və Turizm Reyestrinin (bundan sonra – Reyestr) aparılması qaydasını müəyyən edir.

1.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **Reyestr** – turizm ehtiyatları, o cümlədən turizm nümayiş obyektləri, turizm məhsulları və turizm sənayesinin subyektləri haqqında məlumat bazasını, turizm sahəsində statistik məlumatları və onların monitorinqlərinin nəticələrini özündə əks etdirən elektron dövlət informasiya ehtiyatı;

1.2.2. **turizm ehtiyatları** – səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusu;

1.2.3. **turizm nümayiş obyektləri** – səfər edilən yerin təbii, mədəni, tarixi və turizm əhəmiyyətli digər obyektləri;

1.2.4. **turizm məhsulu** – turistlərə göstərilən xidmətlər kompleksi (turistlərin yerləşdirilməsi, daşınması, qidalanması üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər);

1.2.5. **turizm sənayesinin subyektləri** – səyahətin məqsədindən asılı olaraq turistlərə göstərilən yerləşdirmə, nəqliyyat (nəqliyyat vasitələrinin turistlərə kirayəyə verilməsi daxil olmaqla), turagent, turoperator, turizm bələdçisi, ictimai iaşə (qidalanma), əyləncə, idman-sağlamlıq, mədəni, işgüzar tədbirlərin təşkilini və turistlərin tələb və ehtiyaclarının ödənilməsini təmin edən digər turizm xidmətləri göstərən hüquqi və fiziki şəxslər, habelə turizm-

təbliğat fəaliyyətini həyata keçirən, turizm təhsili və təlimi xidmətləri göstərən hüquqi şəxslər, turizm sənaye assosiasiyaları;

1.2.6. **yerləşmə vasitələri** – fiziki şəxslərin ödənişli əsaslarla gecələməsi və ən azı 24 saat ərzində qala biləcəkləri mehmanxanalar (hotellər), yerləşmə vasitələri hesab edilən mehmanxana tipli obyektlər və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektləri;

1.2.7. **turoperator** – turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı;

1.2.8. **turagent** – turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən hüquqi və ya fiziki şəxs;

1.2.9. **turizm bələdçisi** – zəruri bilik və bacarıqlar əsasında tur (ekskursiya) çərçivəsində turistlərə (ekskursantlara) rəhbərlik edən, onları lazımi məlumatla təmin edən və səfər edilən turizm məkanları barədə izahlar verən fiziki şəxs;

1.2.10. **aqroturizm obyekti** – turistlərin kənd təsərrüfatı obyektlərində (ferma, əkin sahələri, bağ, bostan, üzümlük və s.) təsərrüfat fəaliyyətlərində iştirakı ilə müşayiət olunan kompleks turizm xidmətlərinin göstərildiyi obyektlər;

1.2.11. **məsuliyyətli ekoturizm obyektləri** – təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması və yerli əhalinin həyat tərzinin yaxşılaşdırılması prinsipləri əsasında turistlərin səyahət edilən yerin təbiəti, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı məqsədilə turizm xidmətlərinin təşkil edildiyi obyektlər;

1.2.12. **çimərlik operatoru** – çimərlikdən istifadənin təşkilini, idarə edilməsini, çimərlik xidmətlərinin təqdim edilməsini, çimərlikdə ətraf mühitin mühafizəsini və istifadəçilərinin təhlükəsizliyini təmin edən fiziki və ya hüquqi şəxs;

1.2.13. **işgüzar turizm subyekti** – işgüzar tədbirlərin (görüşlər, korporativ tədbirlər, konqreslər, sərgilər) təşkilini həyata keçirən hüquqi şəxslər;

1.2.14. **ictimai iaşə obyekti** – istehlak məqsədilə hazırlanmış (bişirilmiş) qida (yeyinti) məhsullarının alıcıya təqdim edilməsini həyata keçirən obyekt;

1.2.15. **turizm nəqliyyat fəaliyyəti** – turistlərin quru, hava və ya su nəqliyyatı vasitəsilə daşınması (nəqliyyat vasitələrinin turistlərə kirayəyə verilməsi daxil olmaqla) üzrə fəaliyyət;

1.2.16. **sənətkar** – misgərlik, qalayçılıq və saxsı məmulat-

larının, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə sahəsində fəaliyyət göstərən fiziki şəxslər;

1.2.17. **turizm təqvimi** – ölkə ərazisində həyata keçiriləcək mədəni, işgüzar, idman və turistlərin marağını cəlb edəcək digər tədbirləri özündə birləşdirən təqvim;

1.2.18. **istifadəçi** – Reyestrdən informasiya əldə etmə və ya informasiyadan istifadə hüququ verilmiş, habelə Reyestr vasitəsilə göstərilən xidmətlərdən istifadə edən dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və ya fiziki şəxslər.

1.3. Reyestr turizm sənayesinə dair məlumatların vahid mənbədə toplanılması, emalı, axtarışı, təhlili və ötürülməsi, turizm məhsullarının və xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə aparılır.

1.4. Reyestr turizm sənayesinin subyektləri barədə məlumatların toplanılmasını, saxlanılmasını, istifadəsini və daxil edilən məlumatların dəqiqliyini, tamlığını və etibarlılığını, həmin məlumatlar əsasında turizm sənayesinin subyektlərinin reytinq cədvəllərinin formalaşdırılmasını, istifadəçilər tərəfindən Azərbaycan Respublikasının normativ hüquqi aktlarına əsasən açıq hesab edilən məlumatların əldə edilməsini, turizm sahəsində elektron xidmətlərin göstərilməsini, məlumatlandırma və maarifləndirmə işlərinin həyata keçirilməsini təmin edir.

1.5. Reyestr elektron formada aparılır.

1.6. Reyestrin saxlanılması, fəaliyyəti və inkişafı üzrə xərclər dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (bundan sonra – Agentlik) üçün nəzərdə tutulan müvafiq vəsait və qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Reyestrin formalaşdırılmasına və aparılmasına dair bu Qayda ilə tənzimlənməyən digər məsələlər, o cümlədən Reyestrin Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə digər dövlət informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na (bundan sonra – “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”) uyğun tənzimlənir.

## 2. Reyestrin infrastrukturu

2.1. Reyestrin infrastrukturu texniki-texnoloji və funksional baxımdan aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr;

2.1.2. telekommunikasiya kanalları;

2.1.3. informasiya ehtiyatı və onun idarəetmə paneli;

2.1.4. əsas və ehtiyat mərkəzlər;

2.1.5. informasiya ehtiyatının arxiv mərkəzi;

2.1.6. axtarış modulu;

2.1.7. statistika modulu.

2.2. Proqram-texniki vasitələr Reyestrin aparılmasını, elektron xidmətlərin və informasiya mübadiləsinin həyata keçirilməsini, istifadəçilərin Reyestrdən istifadəsini, Reyestrin fəaliyyətinin etibarlılığını, təhlükəsizliyini və məlumatların mühafizəsini təmin edir.

2.3. Telekommunikasiya kanalları Reyestrin fəaliyyətinin etibarlılığı və təhlükəsizliyini, operativ və keyfiyyətli elektron xidmətlərin göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksək ötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya xətlərinə malikdir.

2.4. Reyestrin idarəetmə paneli onun informasiya ehtiyatının formalaşdırılmasını, idarə olunmasını və istifadəsini təmin edir.

2.5. Reyestrin fəaliyyətinin dayanıqlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə onun ehtiyat mərkəzi yaradılır və proqram-texniki vasitələrin nüsxələri bu mərkəzdə saxlanılır.

2.6. Formalaşan məlumatlar Reyestrin informasiya ehtiyatında, onların ehtiyat surətləri isə informasiya ehtiyatının arxiv mərkəzində saxlanılır.

2.7. Axtarış modulu Reyestrdə çoxfunksiyalı axtarış sistemini təmin edir.

2.8. Statistika modulu turizm sahəsində statistik məlumatların toplanmasını və istifadəçilər tərəfindən əldə edilməsini təmin edir.

## 3. Reyestrin strukturu və ona daxil edilən məlumatlar

3.1. Reyestrin strukturu aşağıdakılardan ibarətdir:

3.1.1. turizm ehtiyatları;

3.1.2. turizm məhsulları;

3.1.3. turizm sənayesinin subyektləri:

1. yerləşmə vasitələri;
2. turoperator və turagentlər;
3. turizm bələdçiləri;
4. aqroturizm obyektləri;
5. məsuliyyətli ekoturizm obyektləri;
6. çimərlik operatorları;
7. özündə bir neçə fəaliyyət sahəsini birləşdirən qarışıq tipli turizm obyektləri;
8. işgüzar turizm subyektləri;
9. ictimai iaşə obyektləri;
10. turizm nəqliyyat fəaliyyəti ilə məşğul olan şəxslər;
11. əyləncə obyektləri;
12. turizm təhsili və təlimi xidmətləri göstərən hüquqi şəxslər;
13. "Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxs, onun filial və nümayəndəlikləri;
14. turizm sənaye assosiasiyaları;
15. sənətkarlar;

3.1.4. turizm təqvimləri;

3.1.5. turizm sahəsində statistik məlumatlar;

3.1.6. turizm sahəsində aparılmış monitorinqlərin nəticələri:

1. turizm sənayesi subyektləri tərəfindən bu Qaydanın 5.3-cü bəndinə uyğun olaraq Reyestrə daxil edilmiş məlumatların monitorinqinə dair Agentliyin qeydləri;
2. turizm sənayesi subyektləri tərəfindən bu Qaydanın 5.3-cü bəndinə uyğun olaraq Reyestrə daxil edilmiş məlumatların əsasında sistem tərəfindən formalaşdırılan reytinq cədvəlləri.

3.2. Reyestrə bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbənd-lərində qeyd edilənlər barədə aşağıdakı məlumatlar daxil edilir:

3.2.1. turizm ehtiyatının növü, adı, ünvanı və ya yerləşdiyi ərazi, xarakterik xüsusiyyətləri, əlaqə vasitələri;

3.2.2. turizm məhsulunun növü, xarakterik xüsusiyyətləri və əldə edilmə üsulları.

3.3. Reyestrə bu Qaydanın 3.1.3-cü yarımbəndində qeyd edilənlər barədə aşağıdakı məlumatlar daxil edilir:

3.3.1. ümumi məlumatlar: obyektin adı, ünvanı və ya yerləşdiyi ərazi, şəkil, əlaqə vasitələri, il ərzində fəaliyyət göstərdiyi müddət, iş vaxtı, rəhbərin adı, soyadı və ata adı, hüquqi şəxsin adı və dövlət qeydiyyatına alındığı tarix, filial və nümayəndəliyi barədə məlumat, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), ödəniş üsulları,

işçilərin sayı və təlim ehtiyacları, yaratdıqları turizm məhsulları barədə və turizm sənaye assosiasiyalarına üzvlük barədə;

3.3.2. ayrıca daxil edilməli olan məlumatlar:

1. yerləşmə vasitələri üzrə: ulduz kateqoriyası, otaqların sayı (hər bir təsnifat üzrə), yataqların sayı;

2. turoperator və turagentlər üzrə: Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq öhdəliklərinin icrasını təmin etmək məqsədilə mülki məsuliyyət sığortası barədə məlumat (olduğu halda), fəaliyyət növü, fəaliyyət istiqaməti, turistlərin (alıcıların) turoperator və ya turagent tərəfindən göstərilən turizm xidmətlərinə dair şikayətlərinin idarə edilməsi, turistlərlə (alıcılarla) bağlanılmış müqavilələrin ləğvi və kompensasiya siyasəti;

3. turizm bələdçiləri üzrə: ad, soyad, ata adı, doğulduğu tarix və yer, dil bilgiləri, bələdçilik etdiyi region və mövzu, təhsili, müvafiq sahə üzrə təhsilini və ya təlim (ixtisasartırma) proqramını bitirməsini təsdiq edən sənəd (olduğu halda), ilkin tibbi yardımın göstərilməsi üzrə təlimdə iştirakını təsdiq edən sənəd (olduğu halda), sahə üzrə iş stajı, əməkdaşlıq etdiyi turagentlərin adları və əlaqə vasitələri barədə;

4. aqroturizm obyektləri üzrə: ixtisaslaşdığı kənd təsərrüfatı sahəsi, turistlərə göstərilən xidmətlər;

5. məsuliyyətli ekoturizm obyektləri üzrə: turistlərə göstərilən xidmətlər;

6. çimərlik operatorları üzrə: çimərlikdə göstərilən əlavə xidmətlər;

7. özündə bir neçə fəaliyyət sahəsini birləşdirən qarışıq tipli turizm obyektləri üzrə: fəaliyyət göstərdiyi sahələr və hər bir sahə üzrə bu Qayda ilə müəyyən edilmiş məlumatlar;

8. işgüzar turizm subyektləri üzrə: təşkil edilən tədbir növləri;

9. ictimai iaşə obyektləri üzrə: qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin dövlət reyestrindən çıxarış, ixtisaslaşdığı kulinariya sahəsi, menyu, obyektin sahəsi və oturacaqların sayı;

10. turizm nəqliyyat fəaliyyəti ilə məşğul olan şəxslər üzrə: nəqliyyat vasitələrinin və hər bir nəqliyyat vasitəsi üzrə oturacaqların sayı, sürücülərin sayı və dil bilgisi, xidmət göstərdikləri şəhərlər (rayonlar);

11. əyləncə obyektləri üzrə: əyləncə xidmətlərinin növləri;

12. turizm təhsili və təlimi xidmətləri göstərən hüquqi şəxslər üzrə: ixtisaslar, proqramlar (beynəlxalq səviyyədə akkreditasiya

olunan təhsil proqramları ayrıca göstərilməklə) və müddəti, təlimçi sayı, illər (aylar) üzrə məzun (iştirakçı) sayı;

13. “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxs, onun filial və nümayəndəlikləri üzrə: əhatə olunan regionlar, təklif edilən xidmətlər, turizm informasiya məntəqələri haqqında məlumat;

14. turizm sənaye assosiasiyaları üzrə: fəaliyyət növü və üzvlərin sayı, göstərdiyi xidmətlər;

15. sənətkarlar üzrə: məşğul olduğu sənətkarlıq sahəsi, müvafiq sahə üzrə təhsil və ya təlim (ixtisasartırma) proqramını bitirməsini təsdiq edən sənəd (olduğu halda), sahə üzrə iş stajı, istehsal etdiyi sənətkarlıq nümunələrinin fotoşəkilləri.

## 4. Reyestrin idarə edilməsi

4.1. Reyestrin fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişafını Reyestrin operatoru olan Agentlik təmin edir.

4.2. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi zamanı Agentlik “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın 6-cı hissəsi ilə müəyyən edilmiş funksiyaları həyata keçirir.

## 5. Reyestrə məlumatların daxil edilməsi

5.1. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci, 3.1.4-cü və 3.1.6-cı yarımbəndlərində qeyd edilənlər barədə məlumatlar bilavasitə Agentlik tərəfindən Reyestrə daxil edilir.

5.2. Bu Qaydanın 3.1.3-cü və 3.1.5-ci yarımbəndlərində qeyd edilənlər barədə digər dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatlar EHİS vasitəsilə real vaxt rejimində Reyestrə ötürülür.

5.3. Bu Qaydanın 3.1.3-cü yarımbəndində qeyd edilənlər barədə digər dövlət informasiya ehtiyatlarında və sistemlərində mövcud olmayan məlumatlar müvafiq fəaliyyət növləri ilə məşğul olan fiziki və hüquqi şəxslər tərəfindən Vahid Giriş Sistemi (“ASAN login”) vasitəsilə identikləşdirildikdən sonra elektron kabinetləri üzərindən Reyestrə daxil edilir.

5.4. “ASAN login” (https://asanlogin.my.gov.az) vasitəsilə istifadəçi “Elektron hökumət” portalında qeydiyyatdan keçməklə əldə etdiyi vahid istifadəçi adı və şifrəsi ilə qeydiyyatdan keçir və

avtomatik qaydada istifadəçinin adına elektron kabinet formalaşdırılır.

## 6. Reyestrə daxil edilmiş məlumatların yenilənməsi

6.1. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci, 3.1.4-cü və 3.1.6-cı yarımbəndlərində qeyd edilənlər barədə Reyestrə daxil edilmiş məlumatlarla bağlı dəyişikliklər olduqda və ya yeni məlumatlar əldə edildikdə, ilkin məlumatların yenilənməsi və yeni məlumatların daxil edilməsi bu Qaydanın 5.1-ci bəndinə uyğun olaraq 1 (bir) iş günü müddətində həyata keçirilir.

6.2. Bu Qaydanın 3.1.3-cü və 3.1.5-ci yarımbəndlərində qeyd edilənlər barədə Reyestrə daxil edilmiş məlumatlarla bağlı dəyişikliklər olduqda və ya yeni məlumatlar əldə edildikdə ilkin məlumatların yenilənməsi və yeni məlumatların daxil edilməsi bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərinə uyğun olaraq həyata keçirilir.

## 7. Reyestrdən istifadə qaydaları

7.1. “ASAN login” vasitəsilə identikləşdirildikdən sonra Reyestrdə yaradılan elektron kabinetlərə daxil olmaqla, istifadəçilər (Azərbaycan Respublikasında vergi uçotuna alınmamış xarici hüquqi və fiziki şəxslər istisna olmaqla) aşağıdakı xidmətlərdən istifadə edirlər:

7.1.1. turizm sənayesinin subyektləri tərəfindən turizm tədbirlərində (sərgi, festival, konfrans, seminar və s.) iştirak etmək üçün müraciətlərin edilməsi;

7.1.2. turizm üzrə investisiya layihələrinin təqdim edilməsi;

7.1.3. turizm sahəsində statistik məlumatların, Agentlik tərəfindən hazırlanmış analitik hesabat və araşdırma nəticələrinin əldə edilməsi.

7.2. Azərbaycan Respublikasında vergi uçotuna alınmamış xarici hüquqi və fiziki şəxslər bu Qaydanın 7.1-ci bəndi ilə müəyyən edilmiş xidmətlərdən Agentlik tərəfindən verilən kod-parol vasitəsilə istifadə edə bilərlər.

7.3. Reyestrdə müxtəlif meyarlar əsasında axtarış aparılması və açıq hesab edilən məlumatların əldə edilməsi üçün qeydiyyatdan keçmək tələb olunmur.

7.4. Agentlik Reyestrdə saxlanılan və açıq hesab edilən məlumatların EHİS-ə ötürülməsini, Reyestrin internet informasiya

ehtiyatında yerləşdirilməsini və istifadəçilərə onlardan istifadə etmək imkanını təmin edir.

7.5. Reyestrdən istifadə və Reyestrdən məlumatların əldə edilməsi ödənişsizdir.